**Andrey Sizov**

# Uğurlu satış üçün 55 məsləhət

Tərcüməçi:
Ayla Əliqızı

qanun nəşriyyatı

Андрей Сизов

# 55 советов для успешных продаж

"Uğurlu satış üçün 55 məsləhət" adlı bu kitab, peşəkar bir satıcının illər ərzində qazanmış olduğu bilgiləri paylaşma arzusundan yaranıb. Burada satış deyərkən, hər məhsulun birbaşa satışı və müxtəlif xidmətlərin daha yüksək səviyyədə göstərilməsi üçün çox sadə üsullar nəzərdə tutulur. Həmçinin müxtəlif sahələri əhatə edən satıcı-müştəri münasibətlərinin tənzimlənməsi, müştərinin hər bir xidmətdən razı qalmasını təmin edəcək vasitələr və bu münasibətlərin uğurlu sonluğa çatdırılma yolları göstərilib. Məmnun müştəriləri yola salmaq istəyən hər bir xidmət obyekti və hər bir satıcı bu kitabdakı məlumatlardan faydalana bilər!

**Андрей Сизов** **5 5 СОВЕТОВ ДЛЯ УСПЕШНЫХ ПРОДАЖ**
**Andrey Sizov** **UĞURLU SATIŞ ÜÇÜN 55 MƏSLƏHƏT**
Bakı, Qanun Nəşriyyatı, 2024, 104 səh.

Janr: biznes, marketinq
Yaş qrupu: 16+
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.11.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Ayla Əliqızı |
| Redaktor: | Xalid Kazımlı |
| Korrektor: | Ceyran Abbasova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-751-8

© Qanun Nəşriyyatı, 2024
© Андрей Сизов, 2010

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.

# *İthaf*

Mən hər zaman satıcı işləmişəm, bununla fəxr etmişəm və hələ uzun müddət də bu sənətdə qalmaqda davam edəcəm. Bununla fəxr edirəm, bu mənim işimdir. Bu iş dünyanı dəyişmək bacarığına malikdir.

Bu kitabı mən, müasir zamanda bir çox çətinliklərlə qarşılaşan və varlıqlarından çox şey asılı olan öz satıcı qardaşlarıma ithaf edirəm. Onlar bəzən kədərlənirlər, onları bu şəkildə görmək mənə də pis təsir edir. Məhz buna görə bunları yazmaq qərarına gəldim.

Mən sizin özünüzlə qürur duymanızı, zəhmətinizin dəyərini haqqı ilə almanızı və daha çox gülümsəməyinizi istəyirəm. Daha tez-tez, daha ürəkdən. Bu sizə yaraşır.

Mən bunları sizin üçün yazmışam, bəli, bəli. Məhz sizin üçün, ətrafa göz gəzdirməyə ehtiyac yoxdur. Ola bilsin ki, burada hər şey bütünlüklə sizə aid olmasın, amma çox hissəsinin olacağından əminəm!

Gəlin belə edək, mən bir balaca sizin haqqınızda danışım, oradan məhz sizin üçün maraq doğuran hissələri birlikdə tapaq, daha sonra isə nəyi istifadə edib-etməmək qərarını özünüz verərsiniz. Razısız?

Beləliklə, onlara ehtiyacımız olduğu üçün – satıcılara həsr olunur!

*Andrey Sizov*
*Yer planetindən olan adi bir satıcı*

# *1 №-li məsləhət*

## *İnansan, görərsən...*

Dərhal əsas məsələyə keçək. Sevgi, sədaqət, vicdan, gözəllik, harmoniya – bunlar hamısı mövcuddur. Əks təqdirdə, yaşamağın mənası olmazdı. Bu anlayışlar və onların təzahürü həyatda var. Onları görmək istəyən kəs hər yerdə və hər zaman görə bilir. Burada danışılanlar, sizin ona inanıb-inanmamağınızdan, istifadə edib-etməməyinizdən asılı olmadan mövcuddur.

Burada işləyən bu prinsipdir – inansan, görərsən!

Buna inansanız, onları görəcəksiz və həyatın istədiyiniz sahəsində istifadə etmək imkanını qazanacaqsız. İnanmayacaqsız, heç biri həyatınızda olmayacaq. Bu sizin üçün xülyadır, bu səbəblə onu görmürsünüz, elə ona görə də bu anlayışlardan özünüz üçün heç bir fayda çıxara bilmirsiniz.

Özünüz seçin, seçim sizindir. Siz indi sanki qatarları müxtəlif istiqamətlərə hərəkət edən vağzaldasınız. O sizi müxtəlif ünvanlara çatdıra

bilər. Hara gedəcəyinizi isə, yalnız siz bilirsiniz. Mən sizə uğur və rifaha apara biləcək qatardan danışmaq istəyirəm, elə bir qatardan ki, ona çatmaq üçün, arxasınca qaçmaq və özünüzü yormanız gərək olmayacaq. İndi bu barədə danışacağıq.

*Ulduzunu səmada axtar ki, parladığını görəsən!*



## *2 №-li məsləhət*

## "Mövcud olmaq" və ya "görünmək"

Siz çox bacarıqlısınız və uğur qazanmaq üçün böyük potensiala maliksiniz. Bu sizin təbii halınızdır. Ola bilsin ki, sizə dövlətli və nailiyyətli biri kimi "görünməyi" öyrədiblər. Sıxıntılar da elə buradan başlanır.

Olduğunuz kimi görünməyə çalışın!

Əgər nəsə alınmırsa, eləcə də deyin: "Alınmır". O zaman istəkləriniz daha tez-tez yerinə yetəcək. Sadə və səmimi olmağa çalışın, "görünməyə" çalışmayın.

Bəzi insanlar daima uğurlu biri olduqları görüntüsünü verməyə çalışırlar və bu onları həddən artıq sıxır. Onlar xoşbəxt görünüb, zəngin olduqlarını büruzə verməyə çalışırlar. Onlar bu görüntünü başqa şəxslər üçün yaradaraq, buna həddən artıq zaman və diqqət ayırırlar. Bu özünü daha çox müştərinin pul vermək istəmədiyini açıq-aydın göstərdiyi zaman, satıcılarda göstərir. "Bəsdir, daha nəzakətli olmağın mənası yoxdur, özüm kimi olmalıyam", bu zaman müştəri

özünə qarşı münasibətin dəyişdiyini görərək, özü haqqında yeniliklərlə qarşılaşacaq.

Sıxıntı daxildə olmayan bir şeyin, xaricə var kimi göstərmək istədiyimiz səbəbilə yaranır. Bu isə daxili diskomfort yaradır və insan bu şəkildə uzun müddət davam gətirə bilmir. O, daha çox sata bilməyəcək, buna görə də müxtəlif bəhanələr və səbəblər gətirərək bu işi atacaq.

Bütün ideya yalnız buradadır – hər hansı bir başqa sahədə olduğu kimi, satışda da uğur və pul qazanmağın yolu, sadəcə, gərgin işləməyə, özünü gərməyə son qoymaqdır.

Bunun necə baş verdiyini və öhdəsindən necə gələ biləcəyinizi, dəqiqliyilə təsvir etməyə çalışmışam.



# *3 №-li məsləhət*

## *İndi malik olduğunuzdan daha artığını əldə etmək üçün nə etməli*

Hazırda malik olduqlarınızdan daha artığını əldə etmək istəyirsizsə, deməli, əvvəlki fəaliyyətinizdən daha fərqli olmalısınız və bu ardıcıllıqla davam etməlidir.

Bu isə adət etdiyimiz haldan kənar olduğu üçün, bizə narahatlıq verib, komfortumuzu poza bilər. Siz bu halı özünüzdə dəf etməlisiniz. *Sizin yeni məqsədləriniz komfort əhatəsindən kənarda qalır.* Hər zaman. Kiçik və ya böyük olmasından asılı olmayaraq, o ardıcıl səy tələb edir. Buna görə də "dəfedici" gücə malik olmalı, əvvəlkindən daha dövlətli və xoşbəxt həyatı yaşamaq üçün zəhmət və əziyyət çəkməlisiniz. Əslində bu göründüyü qədər çətin deyil.

*Hər şey asanlaşanadək çətin görünür.*